# İncəsənət məktəbi şagirdlərinin hesabat konsertində





Qəbələ Rayon İncəsənət Məktəbinin şagirdləri hər tədris ilinin sonunda öz rəngarəng hesabat xarakterli konsert proqramı ilə çıxış edirlər. Ötən həftə rayonun Mədəniyyət mərkəzində incəsənət məktəbinin müəllim və şagird kollektivlərinin təşkilatçılığı ilə böyük konsert proqramı nümayiş etdirilmişdir.

Tədbirə şagirdlərin valideynləri ilə yanaşı qonaqlar da dəvət olunmuşdur.

Hesabat konsertinin başlanmasından öncə incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev iştirakçıları salamlayaraq, başa çatmaqda olan tədris ilində şagirdlərin qazandıqları uğurlardan söz açdı.

Sonra meydan gənc istedadlara verildi. Meydana ilk olaraq məktəbin şagirdlərdən ibarət xor kollektivi çıxdı. Xor kollektivi Rəşid Şəfəqin «Qızıl dan» mahnısını ifa etdi. Daha çonra bir-birinin ardınca 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci,7-ci və digər siniflərin şagirdləri səhnədə göründülər. Nigar Rəsulovanın, Şəbnəm Şıxqəmzəyevanın, Fəqan Eyvazovun, Elçin Həmidovun, Vüsal Xəlilovun, Fatimə Səmədzadənin, Banuçiçək Məmmədovanın və başqalarının ifa və çıxışları sürəkli alqışlarla qarşılandı. Onların ifa etdikləri Azərbaycan xalq mahnıları, bəstəkar mahnıları, mugamlar, gözəl xoreoqrafik və milli rəqslər müəllimlərinin öz şagirdlərinə çəkdikləri zəhmətlərinin hədər getmədiyini təsdiq etdi.

Çıxış edən valideynlər çəkdikləri zəhmətə görə müəllimlərə təşəkkürlərini bildirdilər, müəllimlər də öz növbəsində bu əməyin qarşılıqlı olduğunu söylədilər.

Tədbiri incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev yekunlaşdırdı.

**«Qəbələ».**

**Fotolar S. Umuyevindir.**

# Birincilərin əlifba bayramı

Fövzi Həmidov adına Bunud kənd tam orta məktəbində birincilərin «Əlifba bayramı» keçirildi. Onların bu sevincinə müəllimlər və valideynlər də ortaq oldu.

Tədbir Azərbaycan Respublikasının Dövlət himni ilə başladı. Sonra birincilərin ifalarında vətən, müəllim və məktəb haqqında söylədikləri şeirlər dinlənildi. Həmçinin bir-birinə arzu və istəklərini öz şeirləri ilə çatdırdılar.

Söz məktəbin direktoru Vəli Vəliyevə verildi. O, «Əlifba bayramı» münasibətilə birinciləri təbrik etdi və onlara arzu və istəklərini çatdırdı.

Birincilərə qələm tutmağı, onlara «Ana», «Vətən» kəlmələrini yazmağı öyrədən müəllimləri, Almarə Dadaşova şagirdlərinə gələcək təhsil illərində müvəffəqiyyətlər arzu etdi. Övladlarına valideynlərin arzuları, təbrikləri də unudulmadı.

Tədbir birincilərin hazırladığı səhnəciklərlə, müxtəlif musiqi nömrələri ilə davam etdi.

Mən də onlara özlərinin dediyi kimi, həmişə hər sahədə birinci olmağı, ilk dəfə yazdıqları «Ana», «Vətən» kəlmələrinə layiq övlad olmalarını arzu etdim.

**Elnarə ASLAN,**
**Bunud kəndi.**

# Bunları bilirsinizmi?

Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.

* * *

Orta statistik hesabla bankomat il ərzində 250 dollar səhv hesablayır. Müştərilərinin xeyrinə.

* * *

Pinqivin üç metr yüksəkliyə tullanmağa qadirdir.

* * *

Palıd qozasının bitib yetişməsi üçün 50 il vaxt lazımdır.

* * *

Çirkli qar təmiz qardan tez əriyir.

* * *

Arıların 5 gözü olur.

* * *

Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.

* * *

Qarışqa digər canlılarla müqayisədə ən böyük beyinə malikdir. Təbii ki, bədəni ilə müqayisədə.

* * *

Məşhur nağıl yazarı Hans Xristian Anderson demək olar ki, bir sözü belə savadlı yaza bilməmişdir.

* * *

Xokkey şaybasının atılma sürəti saatda 160 km çata bilər.

* * *

Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.

* * *

**Çələbi DÖNMƏZ.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 saylı qərarla Uludaş kənd sakini Həmidova Sayad Sədulla qızının adına verilmiş JN-263 F nömrəli (kodu 40615038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Bakı şəhər sakini Qaçayeva Rahilə Siraceddin qızına Qəbələ şəhər Bələdiyyəsi tərəfindən 11 yanvar 2006-cı il tarixdə tərtib edilmiş, 542 nömrə ilə qeydiyyata alınmış **Torpaqların alqı-satqısına dair Akt**, fərdi yaşayış evi tikmək məqsədilə 0,10 ha torpaq sahəsinin satılması barədə Qəbələ Bələdiyyə Başçısının 21 dekabr 2005-ci il tarixli **12 nömrəli Qərarı və çıxarış**, Qəbələ Bələdiyyə Fonduna aid ərazidən yaşayış evi tikmək üçün alqı-satqı əsasında ayrılmış torpaq sahəsinin Qəbələ Bələdiyyəsi, DTXK Qəbələ Rayon Şöbəsi tərəfindən təsdiqlənmiş **yer quruluşu planı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixdə 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini Baxışova Maprqarita Qasım qızının və ailə üzvlərinin adına verilmiş JN:1417 nömrəli (kodu 40600048) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Restr Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 9 yanvar 2009-cu il tarixdə Quşlar kənd sakini Cəfərov Qorxmaz Sədir oğlunun və ailə üzvlərinin adına verilmiş seriya MN 0012598 nömrəli (reystr № 406013006214) **Çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə sakini Lətifova Gülcəhan Şükür qızının adına verilmiş JN: 59 №-li (kodu 40600048) olan **Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam kənd sakini Qasımov Balakişi Yasin oğlunun və ailə üzvlərinin adına verilmiş JN-1727 A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

9 saylı Səyyar ASAN xidmət tərəfindən 3 avqust 2013-cü il tarixdə Qəbələ şəhər sakini Abdüləzizov Kənan İlyas oğluna verilmiş AC 453070 № li Azərbaycan Respublikasının B kateqoriyalı **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, Qəbələ Rayon Ərazi İdarəsi Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən Qəbələ rayon Mirzəbeyli kənd sakini Hacıyev Tofiq Yusif oğluna verilmiş seriya MH № 0000963, reyestr nömrəsi 406013001984-06301, qeydiyyat nömrəsi 190703354 qeydiyyat tarixi 10.07.2007 olan **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarla Çarxana kənd sakini Məmmədov Oqtay Cühər oğlunun adına verilmiş JN-214 A nömrəli (kodu 40604048) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Məmmədağalı kənd sakini Mutdəhirov Əziz Səfər oğlunun və ailə üzvlərinin adına verilmiş JN-050 A nömrəli (kodu 40603048) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

YAP Qəbələ rayon təşkilatı partiyanın rayon təşkilatının şura üzvü, **Qüdrət Səmədova,** qardaşı

**MÜRSƏL SƏMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

## «Qəbələ» qəzetinə

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.